26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür!

24/25 (1280) 22 iyun - 5 iyul 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCANLA OPEC+ ÖLKƏLƏRİ ARASINDA UĞURLU ƏMƏKDAŞLIQ HƏYATA KEÇİRİLİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qaysı qəbul edib.

Görüşdə Azərbaycanla OPEC+ ölkələri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edilib. Baş katib vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan OPEC+ formatı yaranan ilk gündən bu əməkdaşlığa böyük töhfə verir.

Eyni zamanda, bu gün qlobal neft bazarında OPEC+ formatında fəaliyyətin roluna toxunulub, indiyədək bu bazarda sabitliyin əldə edilməsinin məhz bu formatda həyata keçirilən fəaliyyət nəticəsində mümkün olduğu xüsusi qeyd edilib. Söhbət zamanı bu gün "fossil" yanacaqlar sahəsində mövcud olan məsələlər müzakirə edilib, gələcəkdə bu sahəyə investisiyaların ayrılmasının vacibliyi bildirilib. Dünya iqtisadiyyatının artması nəticəsində ümumilikdə enerjiyə çoxalan tələbat nəzərə alınaraq, bu sahəyə son zamanlarda investisiyaların azaldılmasının müəyyən narahatlıq doğurduğu qeyd olunub.

Görüşdə dünyada yaşıl enerji sahəsində əldə edilən irəliləyişlərlə bərabər, ənənəvi yanacağın oynadığı vacib rol vurğulanıb. Ənənəvi enerji sahəsində ətraf mühitə zərərin azaldılması baxımından yeni texnologiyaların tətbiqinin xüsusi əhəmiyyət daşıdığı bildirilib.

## "ARAZ VADİSİ İQTİSADİ ZONASI" SƏNAYE PARKINDA "AVTO LİZİNQ AZƏRBAYCAN" MMC-NİN AÇILIŞI OLUB



İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin açılışında iştirak ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov görülən işlər barədə məlumat verib.

Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Sənaye Parkının logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. Park yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

Ölkəmizdəki digər mövcud sənaye parklarında olduğu kimi, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir.

Ümumi investisiya həcmi 10,2 milyon manat olan müəssisənin inşasına artıq 9,4 milyon manatdan çox investisiya yatırılıb. Müəssisənin fəaliyyətə başlaması məşğulluğun təmin edilməsinə də töhfə verəcək.

## "AZƏRBAYCANIN SƏHİYYƏ İNFRASTRUKTURUNUN TAMAMİLƏ YENİLƏNMƏSİ ULU ÖNDƏRİN ADI İLƏ BAĞLIDIR"

"Xaricdə yaşayan azərbaycanlı həkimlərin birinci simpoziumunun Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirləri çərçivəsində təşkili ona dərin rəmzi məna qazandırır".

Bu fikirlər Prezident İlham Əliyevin Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumunun iştirakçılarına müraciətində yer alıb.

Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycanın səhiyyə infrastrukturunun tamamilə yenilənməsi və müasir əsaslar üzərində qurulması məhz Ulu Öndərin adı ilə bağlıdır. Ötən müddətdə uğurla gerçəkləşdirilmiş işlərin davamı olaraq səhiyyənin inkişafı bu gün də dövlətimizin sosialyönümlü siyasətinin prioritetlərindəndir.

"Respublikamızın regionlarında yeni-yeni diaqnostika mərkəzləri və şəfa ocaqları istifadəyə verilmiş, səhiyyə müəssisələri qabaqcıl texnologiyalara əsaslanan tibbi avadanlıqlarla təchiz edilmiş, əhalinin sosial müdafiəsinin başlıca tərkib hissəsi kimi həyati əhəmiyyətə malik icbari tibbi sığorta tətbiq olunmuşdur. Son illərdə təbabətin aktual məsələlərinə dair beynəlxalq səviyyəli konfrans və görüşlərə ölkəmizin ev sahibliyi etməsi isə Azərbaycan səhiyyəsinin qlobal səhiyyə sisteminə inteqrasiyasına əlverişli zəmin yaratmışdır", - deyə Prezident İlham Əliyev qeyd edib.

## "AZƏRBAYCAN-GÜRCÜSTAN-TÜRKİYƏ FORMATI HƏR ÜÇ ÖLKƏ ÜÇÜN VACİB ƏHƏMİYYƏT KƏSB EDİR"

"Azərbaycan, Gürcüstan və Türkiyənin xarici işlər nazirlərinin növbəti üçtərəfli görüşünün yeri və tarixi diplomatik kanallar vasitəsilə razılaşdırılır".

Bunu Tbilisidə jurnalistlərə müsahibəsində Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov deyib.

Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatının hər üç ölkə üçün vacib əhəmiyyət kəsb edən uğurlu format olduğunu söyləyən X.Xələfov qeyd edib: "Biz bu gündək bu format çərçivəsində çox böyük işlər görə bilmişik və bu üç ölkənin bundan sonra da bu istiqamətdə görə biləcəyi işlər çoxdur. Həm qarşılıqlı anlaşma və etimadın olduğu siyasi sahədə, həm iqtisadiyyat, nəqliyyat, mədəni-humanitar və digər sahələrdə bizim gündəliyimiz çox geniş və zəngindir. Gündəliyimizdə olan bütün məsələlər üzrə nailiyyət qazanmağımız və bu işləri irəli aparmağımız üçün potensialımız mövcuddur".

## AĞDAMDA AŞKARLANAN KÜTLƏVİ MƏZARLIQ ERMƏNİ CİNAYƏTLƏRİNƏ DAİR NÖVBƏTİ FAKTDIR

"Torpaqlarımız işğaldan azad edildikdən sonra ermənilərin uzun illər həmin ərazilərdə apardıqları maddi və mənəvi vandallığın yeni-yeni nümunələri ilə qarşılaşırıq. Həmçinin ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar aşkarlanıb. Son günlərdə Ağdamda aşkarlanan kütləvi məzarlıq erməni cinayətlərinə dair növbəti faktdır".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun İcraçı direktoru Mehman İsmayılov söyləyib.

O bildirib ki, bu gün də dünya ictimaiyyətini aldatma cəhdlərindən əl çəkməyən Ermənistan etdikləri vəhşilikləri gizlətməyə çalışsa da, bu cür vandallıqları ört-basdır edə bilmir. Özünü Qafqazın "ən insanpərvər" xalqı kimi qələmə verən ermənilər türk xalqına münasibətdə hər zaman qəddar davranıb, dinc sakinlərə qarşı amansızlıq ediblər.



## CENEVRƏDƏ "MİNALARDAN AZAD CƏNUBİ QAFQAZ" MÖVZUSUNDA TƏDBİRDƏ AZƏRBAYCANIN MİNA PROBLEMİ BARƏDƏ MƏLUMAT VERİLİB

Cenevrədə Piyadalar Əleyhinə Minaların Qadağan Olunması üzrə Konvensiyanın 2023-cü il sessiyalararası görüşü çərçivəsində LINKS Avropa Fondunun təşkilatçılığı və Avropa Birliyinin dəstəyi ilə "Minalardan azad Cənubi Qafqaz" mövzusunda tədbir təşkil edilib.

Azərbaycanın BMT-nin Cenevrə bölməsi yanında daimi nümayəndəliyindən bildirilib ki, tədbirdə Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov məruzəçi qismində çıxış edib.

E.İsgəndərov 30 ilə yaxın davam edən işğal nəticəsində ölkəmizin ərazisinin 10-dək hissəsinin Ermənistan tərəfindən məqsədyönlü şəkildə minalarla çirkləndirildiyini, bu ərazilərdə 1,5 milyondan çox minanın basdırıldığını diqqətə çatdırıb.

Ərazilərimizin məqsədyönlü şəkildə minalanmasının davam etdirilməsinin bölgədə dayanıqlı sülhün əldə olunmasına, aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, burada fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və doğma yerlərində dinc yaşamasına manеə yaradan əsas təhdidlərdən olduğunu vurğulayan E.İsgəndərov mina qurbanlarından söz açıb. Bildirib ki, işğaldan azad edilmiş ərazilərdə 2020-ci ilin noyabrından indiyədək baş vermiş 179 insident nəticəsində 57 vətəndaşımız həlak olub, 247-si ağır yaralanıb.

Çıxışda, həmçinin Ermənistanın beynəlxalq humanitar hüququn tələblərini pozaraq, minalanmış ərazilərin xəritələrini Azərbaycana verməkdən hələ də boyun qaçırdığı vurğulanıb.

# Mixail Qusman: Türkiyə Rəcəb Tayyib Ərdoğan kimi dahi lideri olduğu üçün xoşbəxt ölkədir



TASS informasiya agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusmanın Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan haqqında çəkdiyi filmin Moskvada təqdimat mərasimi keçirilib. Təqdimatı Türkiyənin Moskvadakı səfirliyində keçirilən film "Hakimiyyət formulu" adlı silsilə televiziya verilişləri çərçivəsində çəkilib.
Tədbirdə Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko, Azərbaycanın səfiri Polad Bülbüloğlu, bir sıra ölkələrin səfirləri iştirak ediblər.
Türkiyənin Moskvadakı səfiri Mehmet Samsar qeyd edib ki, Mixail Qusman "Hakimiyyət formulu" adlı verilişlə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə bir neçə dəfə görüşüb. "Sənədli film Prezident Ərdoğanın müstəsna siyasi karyerasını, onun müdrik liderliyini oxuculara çatdırır. Prezident Rəcəb Tayyib Ərdoğanın uzaqgörən rəhbərliyi ilə biz Türkiyə Yüzilliyinə daxil oluruq. Bu yeni dövrdə qarşıya qoyulmuş məqsədlər arasında regionda və bütün dünyada sülhün bərqərar olunmasına səy göstərmək də yer alıb", - deyə səfir bildirib.
Diplomat vurğulayıb ki, Türkiyə Rusiya ilə bütün sahələrdə münasibətləri möhkəmləndirməkdə qərarlıdır. O, həmçinin Rəcəb Tayyib Ərdoğanın "Daha ədalətli dünya mümkündür" kitabını təqdim edib.
Mixail Qusman Prezident Rəcəb Tayyib Ərdoğan ilə ilk dəfə onun hələ Baş nazir olduğu dövrdə görüşdüyünü xatırlayaraq deyib: "Bundan sonra biz onunla dörd dəfə təkcə müsahibə səbəbi ilə və bir neçə dəfə müsahibədənkənar görüşmüşük. Onun heyrətamiz, təsiredici siyasi karyerasını müşahidə etmək imkanına malik olduğum üçün deməliyəm ki, mənim fikrimcə, Türkiyə belə bir dahi lideri olduğu üçün xoşbəxt ölkədir".

# Peter Siyarto: "Bu il Azərbaycan təbii qazının Macarıstana çatdırılacağına ümid edirik"



Bunu Macarıstan naziri enerji təhlükəsizliyi ilə bağlı suala cavab olaraq deyib. O, bildirib: "Dənizə çıxışı olmayan Macarıstanın təbii ehtiyatları, xüsusilə də təbii qaz və neft ehtiyatları yoxdur. Buna görə də ölkəmiz bu sahədə idxaldan, digər ölkələrin təchizatından asılıdır. Gündəlik həyatda Avropa İttifaqı və ABŞ-ın enerji təminatını şaxələndirmək istəyindən danışılır.
Bu sahədə bizim Azərbaycanla çox məhsuldar danışıqlarımız oldu və müqavilə imzalandı. Həmin müqaviləyə görə ildə 1 milyon kubmetrdən çox Azərbaycan təbii qazı Macarıstana ixrac olunacaq. Ancaq Cənub-Şərqi Avropada lazımi infrastruktur olmadığından bu müqavilə bu il reallaşacaq.
Enerji təchizatı ilə bağlı məsələnin siyasətlə, eləcə də ideologiya və ya siyasi mənsubluqla heç bir əlaqəsi yoxdur. Bu, fiziki reallıq məsələsidir.
Təbii qaz təminatını Avropadakı infrastruktur təyin edir. Yeni qarışıq enerji mənbəyi olması üçün Cənub-Şərqi Avropada infrastrukturun təkmilləşdirilməsi məqsədilə Avropa İttifaqına müraciət etdik. Qurumdan bildirildi ki, qaz təchizatı infrastrukturuna dəstək vermək istəmir, çünki daha çox yenilənən enerjiyə prioritetdir".

# "Azərbaycan regional əlaqələndirmə layihələrinin fəal təşəbbüskarıdır"

"Bu gün Mərkəzi Asiyadan, Xəzər dənizindən və daha sonra Qafqazdan keçən nəqliyyat marşrutlarının əhəmiyyəti daha da artıb. Azərbaycan nəqliyyat infrastrukturunun şaxələndirilməsinə və modernləşdirilməsinə diqqət yetirir, Avropa ilə Asiya arasında ticarət və logistikanı gücləndirmək üçün bir sıra nəqliyyat infrastrukturu layihələri təşviq olunur".
Bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığa işgüzar səfəri çərçivəsində Xəzər Siyasət Mərkəzi tərəfindən təşkil edilmiş Xəzər Bağlantı Konfransında çıxışı zamanı deyib. Nazir, həmçinin Azərbaycanın Bakı-Tbilisi-Qars dəmir yolu və Trans-Qafqaz fiber-optik kabel layihələri kimi bir sıra digər regional əlaqələndirmə layihələrinin reallaşdırılmasında fəal təşəbbüskar və etibarlı tərəfdaş olduğunu diqqətə çatdırıb.



Ceyhun Bayramov Azərbaycanın Xəzər dənizinin öz hissəsində böyük dəniz küləyi potensialından, bu xüsusda elektrik enerjisinin Avropaya potensial ixrac yollarından da danışıb. O, Asiya ilə Avropa arasında yeni əlaqə marşrutu yaratmaq məqsədi daşıyan rəqəmsal dəhliz olan "Rəqəmsal İpək Yolu"nun yaradılmasını nəzərdə tutan "Azerbaijan Digital Hub" layihəsini qeyd edib.

# Tatarıstanın Rəisinə Şərqi Zəngəzur iqtisadi rayonunda görülən işlər barədə məlumat verilib



İyunun 17-də Azərbaycan Respublikasına səfərə gələn Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanova Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında görülən işlər barədə məlumat verilib.
Şərqi Zəngəzur iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında görülmüş işlər barədə təqdimatla çıxış edib.
Tatarıstanın Rəisinə əvvəlcə Zəngilan Beynəlxalq Hava Limanı barədə məlumat verilib. Bildirilib ki, 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə hava limanının açılışı olub.
Hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul etmək imkanına malikdir.
Qeyd olunub ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının ümumi ərazisi 2580 kvadratkilometrdir. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı prosesinə start verilib. Hazırda 86 ailədən ibarət 420 nəfər Zəngilanın Ağalı kəndinə qayıdıb və orada yaşayır. Ümumilikdə 2022-2026-cı illərdə Cəbrayıl, Qubadlı və Zəngilan rayon mərkəzlərinin, 5 qəsəbənin, 24 kəndin tikintisi və Böyük Qayıdışın birinci mərhələsində 41 min 277 nəfərin köçürülməsi planlaşdırılır.
Tatarıstanın Rəisi Rüstəm Minnixanova "Araz Vadisi İqtisadi zonası" Sənaye Parkında görülən işlər barədə də məlumat verilib. Bildirilib ki, 200 hektar ərazini əhatə edən Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti Parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb. Bu layihələrin reallaşması nəticəsində, ümumilikdə Sənaye Parkına 32,7 milyon manat investisiya yatırılacaq.

# "Aframax" tipli "Şuşa" tankeri istismara verilib



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) fəaliyyət coğrafiyasının genişləndirilərək, Xəzərdən kənar hövzələrdə yükdaşıma potensialının artırılmasına dair Prezident İlham Əliyevin müvafiq tapşırıqlarının icrası istiqamətində daha bir mühüm layihə icra olunub.
QSC-dən bildirilib ki, layihə çərçivəsində SOCAR və ASCO-nun Müşahidə Şurasının razılığı ilə paritet əsaslarla "SA Maritime AFEZCO" Birgə Müəssisəsi yaradılaraq, Ələt Azad İqtisadi Zonasında qeydiyyatdan keçirilib. Birgə müəssisə bazar araşdırmaları nəticəsində ilkin olaraq 2-si üçüncü tərəfə və 1-i SOCAR-a məxsus olmaqla, hər birinin dedveyti (yəni, ümumi yükgötürmə qabiliyyəti) təxminən 115,000 tona malik 3 "Aframax" tipli tankerin alınması üzrə müvafiq işlər aparıb.
"Aframax" tipli tankerləri Ələt Azad İqtisadi Zonasında qeydiyyatdan keçmiş ASCO-nun 100 faiz törəmə müəssisəsi olan "ASCO Ship Management AFEZCO" şirkəti idarə edəcək.
İndiyədək Azərbaycan gəmiçilik tarixində istismar edilən ən böyük tanker 13,000 ton dedveytə malik olub. Beləliklə, həmin gəmilərdən təxminən 10 dəfə böyük olan "Aframax" tipli tankerlərin alınması ilə Azərbaycan gəmiçiliyi yeni dövrə qədəm qoyub.
Qeyd edək ki, layihə çərçivəsində alınan digər iki "Aframax" tipli tanker – "Qarabağ" və "Zəngəzur" tankerlərinin də Xəzərdən kənarda istifadəyə verilməsi işləri tamamlanmaq üzrədir. Gəmilər yaxın həftələrdə növbəli şəkildə istismara veriləcək.

# Mikayıl Cabbarov Asiya İnkişaf Bankının nümayəndəsi ilə görüşüb

İqtisadiyyat naziri Mikayıl Cabbarov Asiya İnkişaf Bankında (AİB) Azərbaycanın daxil olduğu ölkələr qrupu üzrə icraçı direktor xanım Reyçl Tomsonla görüşüb.
Görüşdə diqqətə çatdırılıb ki, Azərbaycan beynəlxalq maliyyə qurumları, o cümlədən Asiya İnkişaf Bankı ilə tərəfdaşlığa önəm verir, Bankın ölkəmizə maliyyə-texniki dəstəyi yüksək qiymətləndirilir. AİB enerji, ətraf mühit, infrastruktur, transit-logistika, rəqəmsal inkişaf, dövlət-özəl sektor tərəfdaşlığı və digər istiqamətlər üzrə icra olunan layihələr çərçivəsində ölkəmizə dəstək göstərir. İqtisadiyyat naziri həmçinin, Milli Prioritetlər, 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası çərçivəsində görülən işlər, işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri barədə məlumat verib, bu sahədə Asiya İnkişaf Bankı ilə əməkdaşlıq imkanlarını vurğulayıb.

# Asiya İnkişaf Bankı Azərbaycanla bir çox istiqamətlər üzrə əlaqələrin genişləndirilməsində maraqlıdır

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı Asiya İnkişaf Bankının (AİB) Direktorlar Şurasında Azərbaycan da daxil olmaqla, 11 ölkəni təmsil edən icraçı direktor Reyçl Tompsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.
İİTKM-in mətbuat xidmətindən bildirilib ki, Vüsal Qasımlı əvvəlcə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, eləcə də Mərkəzin fəaliyyəti barədə ətraflı məlumat verib.
Qeyd edilib ki, AİB-in özəl sektorun inkişaf etdirilməsi, dövlət sektorunun səmərəliliyinin artırılması, infrastrukturun təkmilləşdirilməsi və insan kapitalının gücləndirilməsi məqsədi daşıyan 2019–2023-cü illər üzrə Ölkə Tərəfdaşlığı Strategiyası Azərbaycan hökumətinin strateji yol xəritələri ilə sıx uyğunlaşdırılıb. O əlavə edib ki, AİB-in 2024-2028-ci illər üçün yeni Ölkə Tərəfdaşlığı Strategiyası da "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ilə uyğunlaşdırılır. Həm strateji yol xəritələrinin, həm də sosial-iqtisadi inkişaf Strategiyasının monitorinq və qiymətləndirilməsini həyata keçirən İİTKM bu baxımdan AİB-lə yaxından əməkdaşlıq edir. Xüsusən də "Böyük Qayıdış" proqramının gerçəkləşdirilməsi, həmçinin rəqəmsal və yaşıl həllərin önə çıxması AİB-lə əməkdaşlıqda yeni səhifə açır.
Reyçl Tompson işğaldan azad olunmuş ərazilərdə aparılan sürətli bərpa-quruculuq işləri ilə tanış olmaq məqsədilə Ağdama səfər etdiyini və orada aparılan işləri yüksək qiymətləndirdiyini diqqətə çatdırıb.

## Bakıda Azərbaycan və Belarus arasında diplomatik münasibətlərin yaranmasının 30 illiyi qeyd olunub





İyunun 16-da Bakıda Azərbaycan və Belarus arasında diplomatik münasibətlərin yaranmasının 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Belarusun Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət və hökumət rəsmiləri, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov Azərbaycan-Belarus əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edib. Bildirib ki, 1993-cü ildə yenidən hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət siyasətinin yeni prinsiplər əsasında qurulmasına nail oldu və təbii olaraq Belarusla münasibətlərdə də dönüş yarandı. Vurğulanıb ki, Ulu Öndərin 100 illiyinin Minsk şəhərində də qeyd edilməsi Belarus xalqının və dövlətinin ehtiramını ifadə edir.

Belarus xalqını milli bayram və Azərbaycanla diplomatik əlaqələrin 30 illiyi münasibətilə təbrik edən Baş nazirin müavini bildirib ki, Ulu Öndərin əsasını qoyduğu bu siyasət hazırda Azərbaycan və Belarusun dövlət başçıları tərəfindən uğurla davam etdirilir.

## Andrey Ravkov: Azərbaycan-Belarus əlaqələri qarşılıqlı səmərəli əməkdaşlıq üzərində qurulub

“Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Dünya səviyyəli dahi şəxsiyyət Heydər Əliyevin ölkələrimiz arasında diplomatik münasibətlərin, strateji əməkdaşlıq əlaqələrinin əsasının qoyulmasında böyük rolu olub. Azərbaycan-Belarus əlaqələri qarşılıqlı səmərəli əməkdaşlıq üzərində qurulub”.

AZƏRTAC xəbər verir ki, bunu Belarusun ölkəmizdəki səfiri Andrey Ravkov iyunun 16-da Azərbaycan və Belarus arasında diplomatik münasibətlərin yaranmasının 30 illiyinə həsr olunmuş tədbirdə bildirib.

Ölkələrimiz arasında əlaqələrin möhkəm təməllər üzərində qurulduğunu vurğulayan diplomat deyib: *“Biz həmişə Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirir və onun dəstəyinə arxalanırıq. İnanırıq ki, əlaqələrimiz bundan sonra da inkişaf edəcək və dərinləşəcək”.*



## Çexiya şirkətləri Qarabağa investisiya yatırmağa dəvət edilib



İqtisadiyyat nazirinin müavini, Azərbaycan Respublikası Hökuməti ilə Çex Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın həmsədri Sahib Məmmədov Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Yan Kubik ilə görüşüb.

Ölkələrimiz arasında iqtisadi-ticarət tərəfdaşlığının gücləndirilməsi üçün potensialın mövcudluğunu diqqətə çatdıran nazir müavini Azərbaycan-Çexiya Qarışıq Komissiyasının bu baxımdan faydalı platforma olduğunu qeyd edib. Bildirilib ki, ölkələrimiz arasında investisiya, ticarət, sənaye, innovasiya, nəqliyyat-tranzit və turizm sahələrində əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar var. Bunlarla yanaşı, çex şirkətləri ilə Azərbaycanda mövcud olan sənaye zonaları, eləcə Əlat Azad İqtisadi Zonası çərçivəsində də əməkdaşlıq edilə bilər.

Görüşdə Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti, işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri barədə məlumat verilib, Çexiya şirkətləri Azərbaycana, o cümlədən Qarabağa investisiya yatırmağa dəvət edilib.

## Milli Məclis 2023-cü ilin dövlət büdcəsinə dəyişiklikləri qəbul etdi

Milli Məclisin plenar iclasında “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” qanuna dəyişiklik layihəsi III oxunuşda müzakirəyə çıxarılıb.

Layihəni parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib.

Sənədə əsasən, işğaldan azad olunmuş ərazilərdə, ölkə sərhədlərinin toxunulmazlığının təmin edilməsi və mühafizəsi, ordunun hərbi sursat və maddi-texniki təchizatının müasirləşdirilməsi istiqamətində əlavə tədbir və layihələrin icrası üçün zəruri maliyyə təminatının yaradılması xüsusi əhəmiyyət daşıyır. Bunlar nəzərə alınaraq, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi üçün əlavə 1 milyard 105 milyon manat vəsait tələb olunur. Cari ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 3 milyard manat vəsait nəzərdə tutulub. “Böyük Qayıdışa dair I Dövlət Proqramı” ilə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün 2 milyard 260 milyon manat əlavə vəsaitin cəlb edilməsinə zərurət yaranıb.

Yenidən baxılmış 2023-cü ilin dövlət büdcəsinin əsas parametrləri ilə bağlı məlumata əsasən, dövlət büdcəsinin gəlirləri təsdiq olunmuş 30 milyard 774 milyon manata qarşı 3 milyard 5 milyon manat və ya 9,8 faiz artırılaraq 33 milyard 779 milyon 500 min manat təşkil edəcək. Dövlət büdcəsinin təsdiq olunmuş 33 milyard 353 milyon 300 min manat məbləğində xərcləri 32 milyard 15 milyon 500 min manat və ya 9,6 faiz artırılaraq 36 milyard 568 milyon 800 min manata çatdırılacaq. Dövlət büdcəsinin kəsiri təsdiq olunmuş 2 milyard 579 milyon 300 min manata qarşı 210 milyon manat və ya 8,1 faiz artırılaraq 2 milyard 789 milyon 300 min manat olacaq.

2023-cü il dövlət büdcəsinin kəsiri 210 milyon manat artırılaraq 2 milyard 789 milyon 300 min manat məbləğinə çatdırılır. Kəsirin cari ilin sonuna gözlənilən ümumi daxili məhsula nisbəti 2,5 faiz həcmində olacaq.

Yenidən baxılmış 2023-cü il icmal büdcənin gəlirləri 42 milyard 949 milyon 100 min manat proqnozlaşdırılır və bu, təsdiq olunmuş göstəriciyə nisbətən 9 milyard 923 milyon 400 min manat və ya 30 faiz çoxdur. İcmal büdcənin xərcləri isə 41 milyard 213 milyon 900 min manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 244 milyon 500 min manat və ya 8,5 faiz çoxdur. İcmal büdcə 4 milyard 943 milyon 600 min manat kəsirlə proqnozlaşdırılsa da, 6 milyard 678 milyon 900 min manat əlavə gəlirlər hesabına 1 milyard 735 milyon 300 min manat profisit yaranacaq. Sənəd səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.

* * * * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikasının 2023-cü il 13 iyun tarixli 911-VIQ nömrəli Qanununun tətbiqi barədə fərman imzalayıb.

* * * * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 16 iyun tarixli 917-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1947 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında fərman imzalayıb.






# МИНСК-БАКУ: ПАРТНЕРСТВО ВНЕ РАССТОЯНИЙ



**Посол Беларуси: Мы высоко ценим дружественные связи с братским народом Азербайджана**

***В связи со знаменательными датами Чрезвычайный и Полномочный Посол Республики Беларусь в Азербайджанской Республике Андрей Равков дал интервью газете «Бакинский рабочий».***

***- Уважаемый Андрей Алексеевич, позвольте поздравить вас с 30-летием установления дипломатических отношений между Беларусью и Азербайджаном. С чем мы встречаем юбилей?***

- Спасибо за поздравления, взаимно. Надо сказать, что за 30 лет сформировались и укрепились традиции и принципы белорусско-азербайджанского взаимодействия - дружба, равноправие, уважение, взаимопонимание и поддержка, стали прочным фундаментом отношений между нашими странами и народами.

Главы наших государств многократно отмечали, что приоритетами двустороннего взаимовыгодного сотрудничества являются развитие производственной кооперации, совместные проекты в экономической и гуманитарной сферах, в т.ч. в науке, образовании, здравоохранении. Перспективы белорусско-азербайджанского сотрудничества - это создание новых и развитие имеющихся совместных производств, реализация взаимных инновационных проектов, развитие сотрудничества в сфере транспорта, фармацевтики, туризма, информационных технологий.

За три десятилетия проведено по пять визитов глав государств, в т.ч. визит Президента Беларуси в Баку в апреле 2021 года и визит Премьер-министра Беларуси в Азербайджан в мае 2022 года.

Белорусские представители приняли участие в саммитах Движения неприсоединения (ДН) в Баку в 2019 и 2023 годах, в заседании Парламентской сети ДН и Молодежном саммите ДН в 2022 году. Парламентарии Беларуси приезжали в Баку для участия в мероприятиях к 100-летию со дня рождения общенационального лидера азербайджанского народа Гейдара Алиева. Наше посольство также приняло участие в ряде юбилейных мероприятий к этой знаменательной дате в Баку и Нахчыване.

В мае 2023 года в г.Мингячевире был проведен Первый Азербайджано-Белорусский молодежный форум, в августе мы ждем большую команду азербайджанских спортсменов на Вторых Играх СНГ в Минске. На 2024 год запланировано проведение обменных Дней культуры Беларуси и Азербайджана соответственно в Баку и Минске.

Стороны традиционно поддерживают друг друга на международных площадках: ООН, Движение неприсоединения, UNESCO, МАГАТЭ, ОБСЕ, Всемирная туристская организация и других. Беларусь высоко ценит успешное председательство Азербайджана в ДН.

Беларусь и Азербайджан сформировали прочную и разностороннюю договорно-правовую базу - заключено около 160 межгосударственных, межправительственных и межведомственных соглашений, которые охватывают практически все сферы деятельности. Однако в качестве главного достижения я бы отметил сохранение искренней дружбы между белорусами и азербайджанцами. Наши народы и страны многое объединяет. В Беларуси помнят, что среди ее освободителей от фашизма были и многие воины-азербайджанцы. В их числе - Герои Советского Союза Ази Асланов, Аслан Везиров, Наджафгулу Рафиев. Мы высоко ценим дружественные связи с братским народом Азербайджана и стремимся к дальнейшему укреплению и развитию нашего стратегического партнерства.

***- Поздравляем вас также с предстоящим Днем независимости Республики Беларусь. Что значит этот день для белорусских дипломатов?***

- Благодарю. День независимости - это главный праздник нашей суверенной и независимой страны. Для дипломатов, которые представляют Беларусь на международной арене, он значим и важен вдвойне. Показательно, что наша страна на референдуме 1996 года выбрала символом своей независимости именно день освобождения республики от фашизма - 3 июля 1944 года.

Хочу также отметить, что вклад белорусского народа в Победу получил признание мирового сообщества. На международной конференции в Сан-Франциско в апреле 1945 года Беларусь была включена в число стран-учредителей ООН. Действительно, нами пройден трудный путь. Наша земля многострадальная, прошла через несколько войн. И сегодня мы живем в независимом государстве.

***- Как ваша страна встречает очередную годовщину независимости?***

- В последнее время мир стремительно меняется, к сожалению, это отражается также и на международных отношениях. В сложившейся ситуации наше правительство принимает превентивные меры по стимулированию экономического роста, импортозамещению и сохранению уровня жизни населения. Верю, что мы справимся с ситуацией и преодолеем трудности.

Особенности экономики нашей страны, ее географическое положение и исторические связи обуславливают высокую степень открытости и ориентированность на внешние рынки. Беларусь поддерживает торговые отношения более чем со 170 государствами, производит около трети выпускаемых в мире карьерных самосвалов, почти пятую часть сельскохозяйственных комбайнов, около 5% тракторов и входит в пятерку крупнейших экспортеров молочной продукции.

По экспорту IT-услуг на душу населения мы на первых позициях в СНГ. Многие наши промышленные бренды, например – самосвалы «БЕЛАЗ», автомобильная техника «МАЗ», тракторы «Беларус», холодильники «Атлант», давно и хорошо известны в мире и в вашей стране.

И раз уж заговорили о брендах, то можно вспомнить о рейтингах и индексах и отметить, что по некоторым Беларусь в предпандемийный и предкризисный период занимала достойные места. Например, по индексу человеческого развития - 53-е место в мире из 189 государств (это группа стран с очень высоким уровнем человеческого развития по классификации ООН). В Мировом рейтинге инноваций (Global Innovation Index) - 72-е место, а по отдельным субиндексам, таким как «человеческий капитал и исследования» и выше – 39-е. То же самое относится к рейтингу «Ведение бизнеса-2020»: Беларусь на 49-м месте из 190 стран. При этом в категориях «регистрация собственности» и «открытие бизнеса» мы значительно опережали наших соседей (14-е место).

Беларусь идет своим путем и всегда открыта для сотрудничества со всеми странами. С нами можно торговать и получать от этого экономическую выгоду.





***- Господин Посол, Азербайджан и Беларусь обладают таким редким даром, как проверенное временем сотрудничество. Как вы его оцениваете на сегодняшний день?***

- Прежде всего, подчеркну, что двустороннее сотрудничество наших стран носит характер стратегического партнерства. Наше взаимодействие сегодня - разностороннее и динамичное. Политический диалог на разных уровнях - конструктивный и результативный. В основе этого - пример президентов Александра Григорьевича Лукашенко и Ильхама Гейдаровича Алиева, их взаимопонимание и дружеские, доверительные отношения. Хочу особо отметить, что у истоков формирования белорусско-азербайджанских отношений стоял мудрый лидер Гейдар Алиевич Алиев.

***- Что вы можете сказать об интеграционных структурах с участием Беларуси, о новых направлениях в многосторонней дипломатии?***

- Беларусь, как известно, является участницей Содружества Независимых Государств и придает важное значение Содружеству, членом которого является и Азербайджан, в т.ч. использованию формата СНГ для поддержания двусторонних контактов. Минск, кстати, является столицей СНГ. Интенсифицируется развитие Союзного государства Беларуси и России, в стадии активной реализации находятся принятые сторонами 28 союзных программ.

Беларусь в текущем году председательствует в Организации Договора о коллективной безопасности, уделяя много внимания развитию этой военно-политической организации. Замечу, что ОДКБ имеет статус наблюдателя в Генеральной Ассамблее ООН. Важнейшей для нас интеграционной структурой является Евразийский экономический союз, способствующий торговле и экономическому росту пяти стран-членов, а также трех стран-наблюдателей и четырех стран зоны свободной торговли. Азербайджан также принимает участие в ряде мероприятий ЕАЭС.

Новым перспективным направлением для Беларуси, а также для Азербайджана, является Шанхайская организация сотрудничества. Сейчас речь идет о повышении статуса нашей страны от наблюдателя до полноправного члена ШОС. Наше участие в организации продвигается последовательно. 12-летний путь в организации привел нас к выводу, что текущий статус не позволяет в полной мере воспользоваться всеми преимуществами ШОС и вносить свой вклад в ее развитие. Поэтому мы начали активную проработку получения статуса полноправного члена. Убежден, что это даст дополнительные преимущества и возможности, станет продолжением последовательной политики Беларуси по участию в схожих по отдельным параметрам интеграционным объединениям, таким как СНГ, ЕАЭС и ОДКБ.

Конечно же, следует отдельно сказать, что наша страна активно проявляет себя в рамках ООН, выступает автором и соавтором многих актуальных и важных инициатив и документов. И у этого есть традиция - ведь Беларусь, как я уже отмечал, является одним из государств-учредителей ООН.

***- Как развивается белорусско-азербайджанское сотрудничество в торгово-экономической сфере?***

- Достигнутые результаты взаимодействия Беларуси и Азербайджана в торгово-экономической сфере являются практическим подтверждением стратегического уровня партнерства между нашими странами.

Наблюдается устойчивый рост взаимной торговли по основным товарным позициям.

Мы поставляем в Азербайджан продукцию машиностроения, электротехнические товары, продукцию деревообработки, лекарственные средства, молочные и мясные продукты, другие продовольственные товары.

Важную роль для Беларуси играет импорт азербайджанской плодоовощной продукции, а также полимерного сырья, необходимого для нашей химической промышленности.

В Азербайджане созданы и успешно функционируют собственные субъекты товаропроводящей сети белорусских производителей. 45 официальных дилеров представляют в Азербайджане более 50 предприятий Беларуси. В Баку неизменной популярностью пользуется сеть магазинов Belaruski, где представлен широкий ассортимент белорусских продуктов. В Минске успешно работает Торговый дом «Азербайджан», которому по решению Президента Республики Беларусь предоставлен льготный режим по поставке продовольственной группы товаров на белорусский рынок.

Нацеленность сторон на долгосрочное партнерство подтверждается развитием кооперационных связей между Беларусью и Азербайджаном. Знаковым проектом в сфере производственной кооперации для наших стран стало сотрудничество белорусских машиностроителей с Гянджинским автомобильным заводом. За 15 лет в городе Гяндже собрано более 12 тыс. тракторов Belarus, а также около 4 тыс. единиц другой белорусской техники.

Существенную роль в развитии двустороннего взаимодействия играет Межправительственная Белорусско-азербайджанская комиссия по торгово-экономическому сотрудничеству. 15 мая 2023 года состоялось уже 13-е заседание Межправкомиссии, в ходе которого были обстоятельно обсуждены все вопросы нашей экономической повестки и определены конкретные шаги по реализации задач, поставленных главами наших государств и правительств.

Беларусь заинтересована в активном участии в восстановлении и развитии возвращенных Азербайджану территорий. Уже осуществляются активные поставки белорусских товаров для нужд Карабаха: техника, продукция деревообработки и другие строительные материалы, трансформаторы, провода, кабели и различная электротехническая продукция, а также продовольствие.

Убежден, что сложившиеся партнерские связи между Беларусью и Азербайджаном и далее будут способствовать росту экономик наших дружественных стран и благосостоянию наших братских народов.

**Роман ТЕМНИКОВ**

# Neyron şəbəkələri və süni intellekt (GPT-4)

Bəlkə də ciddi olaraq fərqinə varmırıq, amma bunu bilməliyik ki, sözün əsl mənasında dünya dəyişir. Həm də çox sürətlə dəyişir. Keçmiş tarixlərdə 100 ildə öyrənilən A həcmində elm indi günlər səviyyəsində öyrənilir. Yəqin ki, bu məsələni xüsusi indikatorlarla ölçmək imkanımız olsa, saatlar ərzində öyrənildiyini də görərik, görəcəyik. Elmin inkişaf sürətinin obrazlı desək, işıq sürətinə çatdığı bir vaxtda gözlənilən, amma atom effekti yaradacaq qədər gözlənilməyən ciddi bir mövzu var. Bunun adı GPT və onun inkişaf edən versiyalarıdır. GPT neyron şəbəkələri alqoritmasından istifadə edir. Bu alqoritma daha əvvəldən də mövcud idi. Maşın öyrənmə (Machine Learning-ML) vasitəsi ilə məlumatı öyrənmək və böyük dataları analiz etmək imkanları olsa da, insan kimi ifadə etmək çətin idi və yenə də insana ehtiyac duyulurdu. O dataları insanın anlayacağı dilə çevirmək, izah etmək və anlaşılan vəziyyətə gətirmək üçün qənaətbəxş imkanlar yox idi. Halbuki, bu imkanların süni intellekt vasitəsi ilə mümkün olacağı düşünülürdü. Məsələləri təfsilatı ilə bir qədər geniş formada göstərmək mümkündür. Neyron şəbəkələri insan beyninin işləmə prinsiplərinə əsaslanan və bənzər çalışma metodundan istifadə edən riyazi modeldir. Başqa formada desək, neyron şəbəkələri öyrənmə prosesini daha sürətli edən insan beyninin çalışma üslubuna bənzər "Maşın Öyrənmə (Machine Learning-ML)" alqoritmasının bir növüdür. Eyni zamanda daha çox məlumat, daha çox verilənlər bazası və daha çox mənbələr tələb edir. Neyron şəbəkələr əsasən proqnozlar vermək və qərar qəbul etmək üçün nəzərdə tutulmuşdur.

Neyron şəbəkələrlə bağlı ilk metod 1970-1980-ci illərdə ortaya çıxmışdır. Kompüterlər gücləndikcə neyron şəbəkələrə maraq düz mütənasiblik təşkil etdi və maraq daha da artmağa başladı. Hal-hazırda neyron şəbəkələr pilotsuz maşınlar, görüntü (face detection) və nitqin tanınması (speech recognition) və təbii dilin işlənilməsi ilə bağlı məsələlərdə geniş istifadə olunur.

Neyron şəbəkələr "Maşın Öyrənmə (Machine Learning-ML)" və "Süni İntellekt (Artificial Intelligence-AI)" üçün çox güclü bir vasitədir. Əsas üstünlüyü verilənlərdən öyrənmək qabiliyyətidir. Daha çox nümunə və daha çox məlumat daxil olduqca inkişaf edirlər.

Digər qabiliyyət isə ümumiləşdirmək qabiliyyətidir. Öyrəndikləri nümunələr əsasında yeni və görünməmiş məlumatlar üzərində proqnozlar verə və təsnifatlara bölə bilirlər. Bu özəllik onlara qərar qəbul etməyə kömək edir.

Neyron şəbəkələrin alqoritmaları onlara verilmiş qəliblər əsasında müqayisələr və bənzərliklərə baxaraq məlumatları öz alqoritmasından keçirir və qərar verir. Neyron şəbəkələrə daxil olmuş və öyrəndiyi məlumatlar düzgündürsə, doğru qərarlar verilir, əks halda manipuliyasiya olma ehtimalı da mövcuddur.

Kiçik bir misalda neyron şəbəkələrin işləmə prinsipini izah etmək mümkünür. Şəkildə göründüyü kimi, giriş məlumatları giriş təbəqəsinə ötürülür, sonra məlumatlar bir və ya bir neçə gizli təbəqədən keçir. Ehtiyac olarsa, yenidən girişə qayıdıb sonradan ardıcıl olaraq, son məlumat çıxış təbəqəsinə ötürülür. Əlaqələr əlaqə bağları vasitəsi ilə qurulur. Dərin detallara varmadan mümkün sadə misal ilə izah mümkündür.

**Misal:** Tutaq ki, salonda 50 ədəd minik avtomobili və onun funksiyaları və qiymətləri barədə məlumatlar var. İstəyirik ki, minik avtomobillərinin real bazar qiymətini proqnozlaşdıra bilən neyron şəbəkəsini öyrədək və işə salaq.

**Giriş təbəqə:** Minik avtomobili və onun funksiyaları, qiymətləri daxil olunur.

**Gizli təbəqə:** Məlumatları qəbul edir, üzərində riyazi əməliyyatlar keçirir, özündə daha əvvəldən daxil olmuş məlumatlarla müqayisə edir və ya digər alqoritmaya əsaslanan əməliyyatlar edərək, nəticəni növbəti təbəqəyə göndərir.

**Çıxış təbəqəsi:** Gizli təbəqədən məlumatları alır və minik avtomobilinin qiyməti barədə proqnoz verir.

**Təlim:** Təlim zamanı neyron şəbəkə öz proqnozlarını real qiymət və funksiyalarla müqayisə edir. Dəqiq proqnoz vermək üçün tənzimləmələr aparır, itki və zərərləri qiymətləndirir və s.

**Təxmin:** Neyron şəbəkə bu təlimdən sonra qiymətlə bağlı proqnozlar verə bilir. Yuxarıdakı misalda neyron şəbəkələrinin rəqəmlərlə necə işləməsinin sözlü izahına bir nümunədir. Bu misal bizə neyron şəbəkənin giriş məlumatlarını necə emal etdiyi və proqnozlar verməsi haqqında əsas fikir əldə etməyə imkan verir. Daha mürəkkəb şəbəkələrdə bir neçə gizli təbəqə ola bilər və bir neçə giriş və çıxışa malik ola bilər. Bu, neyron şəbəkəyə giriş məlumatları və çıxış proqnozları arasında daha mürəkkəb əlaqələri öyrənməyə imkan verir.

Neyron şəbəkələrin bir çox növləri var. Bu növlərdən daha geniş bəhs etmək mümkündür. Ancaq texniki-riyazi detallara enmədən ümumi məsələləri göstərmək, maariflənmək cəhətindən daha məqsədəuyğun hesab etmək olar. Neyron şəbəkələrinin istifadə sahələrinə xüsusi diqqət çəkmək olar.

**1. Kompüter sahələrində:**
- *Təsvir və video analizlərdə,*
- *Obyektlərin aşkarlanması və tanınmasında,*
- *Sürücüsüz avtomobillərdə istifadə olunur.*

**2. Danışıq dili ilə bağlı məsələlərdə:**
- *Dil tərcüməsi,*
- *Mətnin ümumiləşdirilməsi,*
- *İnsan dilində anlayıb istifadəçilərlə daha təbii ünsiyyət qurmağa imkan verir.*

**3. Nitqin tanınması:**
- *Nitqdən mətnə və mətndən nitqə tətbiqlərdə istifadə olunur,*
- *İstifadəçilərə səsli əmrlər vasitəsilə cihazlarla qarşılıqlı əlaqə yaratmağa imkan verir.*
- *Danışılan sözləri tanıya, transkripsiya edə və təbii səslə nitq yarada bilər,*




**4. Səhiyyə sahəsi:**
- *Xəstəlikləri müəyyən etmək və diaqnoz qoymaq,*
- *MRT kimi tibbi təsvirlərləri incələmək,*
- *Həmçinin dərmanların kəşfində və inkişafında istifadə olunur.*

**5. Maliyyə sahəsi:**
- *Maliyyə fırıldaqçılığın aşkar edilməsində,*
- *Kredit və alqoritmik ticarətdə istifadə olunur,*
- *Maliyyə Mübadiləsi (borsa) üzrə proqnozları verə bilər.*

**Neyron şəbəkələrini bir çox şəxslər və təşkilatlar istifadə edir:**

1. Tədqiqatçılar və akademiklər
2. Mühəndislər
3. Müəssisələr
4. Hökumət təşkilatları
5. Sahibkarlar

**Bəzi üstünlüklərini də qeyd etmək yerinə düşər:**
- *Eyni anda bir çox iş görmə qabiliyyətinə sahibdir;*
- *Məlumatlar sadəcə verilənlər bazasında deyil, bütün şəbəkədə toplanır;*
- *Məlumatlar arasında olan gizli əlaqələri tapmaq və böyük informasiyanı modelləyə bilir;*
- *Lazım olmayan məlumatları çıxarmaq və əlavələr edə bilir və s.*

**Bəzi əskik cəhətləri:**
- *Bəzi hallarda qüsurlar yarana bilər və proqnozlar yanıldıcı ola bilər. Bu, əsasən daxil olan məlumatlardan da asılıdır.*
- *Yüksək və bahalı prosessorlar və digər resurslar tələb edə bilər.*

*Artıq aydındır ki, neyron şəbəkələr maşın öyrənmə dilidir. Hər dəfə proqramlaşdırmağa ehtiyac qalmadan ona verilmiş qəliblər əsasında öyrənir və qərar verir. Ancaq bu məqamda insana ehtiyac duyulur. Tapılmış cavablara baxmaq, onları hər kəsin anlayacağı dilə çevirmək üçün, insanlara (mütəxəssislərə) ehtiyac vardır. Əks halda cavab anlaşıqsız ola bilər. Məsələnin bu nöqtəsində köməyimizə "Süni İntellekt (Artificial Intelligence-AI)"-in imkanları çatır.*

Süni İntellektin əsas sirri cavabları bir insan kimi, insana çox bənzər formada başa düşülən izah verməsidir. Bu sahədə bir çox araşdırma və real tədqiqatlar mövcuddur. Hər il sahənin 54% böyüdüyü deyilir. Bəzi faktları da göstərmək mümkündür:

***1. Bir nəfər xəstəxanada MRT çəkdirib evə geri dönərkən süni intellektin xəbərdarlığı nəticəsində yenidən xəstəxanaya aparılaraq, həyatını qurtarmaq mümkün oldu.***

***2. Türkiyədə pilotsuz uçan aparatlarda istifadə olunur.***

***3. ABŞ-da Amazon şirkətinə məxsus Alexa-nın bir uşağı təhlükəli bir oyun oynamağa təşviq etməsi böyük reaksiyalara səbəb oldu.***

***4. Nvidia şirkətinin inkişaf etdirdiyi robot Oksford Universitetində sessiyada iştirak etdi. Robot silahlanma yarışı ilə bağlı suala "Müharibə istəmirsinizsə, mən olmamalıyam" cavabını verdi.***

Amma bunların heç biri Amerikanın OpenAİ şirktənin günümüzdə GPT (Generative Pre-trained Transformer-Generativ Öncədən Təlimləndirilmiş Transformator) versiyalarının əldə etdiyi üstünlüklərə çatmayıb. OpenAi şirkəti Süni İntellektin tədqiqat laboratoriyasıdır. OpenAİ dostca Süni İntellektə təşviq və inkişaf etdirmək üçün qurulan qeyri-kommersiya təşklatıdır. Microsoft Azure platformalarından istifadə edərək işləyir. 2015-ci ildə içində Elon Muskın da olduğu bir neçə şəxsin birlikdə 1 milyard ABŞ dolları yatırılaraq San-Fransiskoda qurulan qeyri-kommersiya əsaslı bir şirkət kimi yarandı. Mikrosoft şirkəti 2019-cu ildə OpenAi şirkətinə 1 milyard dollar sərmayə qoydu. Mikrosoft şirkəti Bing axtarış sisteminin modelini gücləndirmək məqsədi ilə GPT-4-ə xüsusi əlçatanlıq üçün 10 milyard dollar ikinci çoxillik sərmayə qoydu.

2020-ci ildə OpenAI GTP-3 versiyanı elan etdi. İnternetdə olan məlumatlar əsasında soruşulan sualları təbii dildə cavablandıra bilirdi, tərcümələr və mətnlərin generasiyası ilə bağlı imkanları təqdim edildi.

**(davamı gələn sayımızda)**



**Bəhruz Əliyev,**
**İnformasiya Texnologiyaları**
**üzrə mühəndis-ekspert, tədqiqatçı**

# ASCO beynəlxalq gəmi şirkətləri ilə əməkdaşlıq imkanlarını genişləndirir




"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) dünyanın aparıcı gəmi idarəetmə şirkəti olan "V.Ships" nümayəndələri ilə görüş keçirilib. ASCO-dan bildirilib ki, qurumun sədri Rauf Vəliyev rəhbərlik etdiyi qurum haqqında qonaqlara ətraflı məlumat verib. O, hazırda ASCO-nun Xəzər dənizindən kənarda da təmsil olunduğunu diqqətə çatdırıb. Bildirib ki, beynəlxalq sularda fəaliyyətin genişləndirilməsi və yükdaşımaların artırılması daim diqqətdə saxlanılır. Bu istiqamətdə ötən həftə növbəti mühüm addım atılıb. SOCAR və ASCO-nun birgə əməkdaşlığı çərçivəsində alınan üç "Aframax" tipli tankerdən birincisi - "Şuşa" tankeri istifadəyə verilib. Bununla da, milli gəmiçiliyimiz yeni tipli, daha böyük gəmi seqmentinə daxil olub.

"V.Ships"in Baş əməliyyat direktoru Allan Falkenberg çıxışında təmsil etdiyi şirkət haqqında məlumat verib.

Görüşdə tərəflər arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivi ətrafında da fikir mübadiləsi aparılıb.

# AZAL 12-ci dəfə Mərkəzi Asiya və MDB üzrə ən yaxşı aviaşirkət seçilib

AZAL nüfuzlu "World Airline Awards 2023" mükafatı alıb. Mərkəzi Asiya və MDB üzrə ən yaxşı regional aviaşirkət adına layiq görülən aviaşirkət yenidən öz yüksək statusunu təsdiq edib.

AZAL-dan bildirilib ki, aviaşirkət regionda aviadaşımalar bazarında öz liderliyini təsdiq edərək və daim sərnişinlərə keyfiyyətli xidmət göstərmək arzusunu nümayiş etdirərək rekord sayda – on ikinci dəfə nüfuzlu mükafata sahib olub. Bu möhtəşəm nailiyyət AZAL-ın sabitləşmiş nüfuzunu və aviasiya sahəsində möhkəm mövqeyini təsdiqləyir.




Mükafatlandırma mərasimi iyunun 20-də Paris aviasalonu çərçivəsində baş tutub.

"Skytrax" şirkətinin baş direktoru Edvard Pleysted bildirib ki, "Azərbaycan Hava Yolları" şirkətinin Mərkəzi Asiya və MDB üzrə ən yaxşı regional aviaşirkət nominasiyasına on ikinci dəfə sahib olması regionda artan rəqabət şəraitində davamlılığın təzahürünün gözəl nümunəsidir.

# Əkinçiliyin inkişafı layihəsinə 175 min manat güzəştli kredit verilib

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu əkinçiliyin inkişafı layihəsi üzrə 175 min manat güzəştli kredit verib.

Bunu nazir Mikayıl Cabbarov "Twitter" hesabında bildirib.

O qeyd edib ki, vəsait Cəlilabad rayonunda fəaliyyət göstərən sahibkar Murad Həsənova ayrılıb.



# Ötən il "Azərkosmos"un ümumi mənfəəti 4,4 milyon, xalis mənfəəti isə 1,4 milyon olub

"Azərkosmos" ASC 2022-ci ilə dair illik hesabat sənədini təqdim edib. ASC-nin mətbuat xidmətinə istinadla xəbər verir ki, 2022-ci ilin maliyyə nəticələrinə əsasən, "Azərkosmos"un ümumi mənfəəti 4,4 milyon, xalis mənfəəti isə 1,4 milyon olub. "Azərkosmos"un gəlirlərinin əsas hissəsi peyk xidmətlərinin ixracından formalaşır.

Qeyd edək ki, "Azərkosmos" 10 illik fəaliyyəti dövründə "Azerspace-1", "Azerspace-2" və "Azersky" peyklərinin xidmətlərindən 500 milyon manat gəlir əldə edib.

# Bütün suallara cavab - QURBANLIQ

***İslam dünyasının müqəddəs bayramlarından sayılan Qurban bayramına, onun adət və ənənələrinə diqqət və qayğı zaman keçdikcə daha da artır. Bununla əlaqədar olaraq mətbuatda da çox maraqlı yazılar dərc olunur. Onlardan birini (yenicag.az) sizinlə paylaşmaq istəyirik.***

***- Qurban nədir?***

Qurban böyük həcc ayı olan Zilhiccə ayının onuncu (bayram) günündə, bayram namazından sonra Allaha yaxınlaşmaq niyyəti ilə kəsilir.

***- Qurbanlıq haqqında "Quran"da*** Uca Allah buyurur: ***"Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır (səmimi-qəlbdən etdiyiniz ibadətdir). Allah sizi doğru yola yönəltdiyi (sizə həccin əməllərini göstərdiyi) üçün Onu (layiqincə) uca tutasınız deyə bunları sizə belə ram etdi. (Ey Muhəmməd!) Ehsan edənlərə (Cənnətlə) müjdə ver!"***(əl-Həcc: 37).

Həmçinin buyurur: ***"Ona görə də (bu nemətlərə şükr edərək) Rəbbin üçün namaz qıl və qurban kəs!"*** (əl-Kövsər: 2).

**- Qurbanın hökmü...**

Qurban kəsmək təkid olunmuş sünnədir. İmkanı olan (məsələn: evi, işi, gündəlik dolanışığı, ərzağı olan) kəslərin üzərinə düşür. Hənəfi məzhəbinə görə isə imkanı olanlara hər il vacibdir. Bu, Qurban namazından sonra Allaha ən sevimli olan əməllərdəndir.

**- Qurbanın fəziləti/savabı**

Qurban kəsən adam kəsdiyi heyvanın hər tükünə görə savab qazanır. Hər savab isə on qat artırılır. Uca Allah istədiyi şəxsin savabını artırar. Qurbanın ilk damla qanı axanda onu kəsənin günahı bağışlanır. Bu haqda "Quran" və hədislərdə bir çox səhih məlumatlar vardır.

**- Qurbanın hikməti**

Allaha yaxınlıqdır, atamız İbrahim peyğəmbərin yolunu tutub getməkdir. Bildiyimiz kimi, İbrahim peyğəmbər, öz oğlu İsmayıl üçün qurban olaraq qoyun kəsmişdir. Bununla yanaşı, bayram günü ailələrin bir-birilə mehribanlaşması, bayramlaşması ilə də yadda qalır. Xüsusən, də kasıb ailələrə yardım edilməsi bu bayramı daha da dəyərli edir.




**- Bayram** çoxlu şükr etmək üçün fürsətdir. Bu heyvanları insanlar üçün ram etdiyinə görə Allaha şükr etmək də bura aiddir.

**- Qurbanlıq heyvanlar**

**Qoyun:** Bir görüşə görə, bir yaş olmalıdır. İmam Əhmədin də içində olduğu bir qrup alimə görə isə altı ayını tamamlaması kifayət edir.

**Keçi:** Bir yaş və daha çox.

**İnək:** İki yaşı tamamlamalıdır.

**Dəvə:** Beş yaşı (bir görüşə görə dörd) tamam olmalıdır.

**- Qurbanlıq heyvanın şərtləri**

Qurbanlıq heyvanda heç bir eyib olmamalıdır. Məsələn: bir gözü kor, ayağı axsaq, arıq, halsız, xəstə, buynuzu dibindən sınmış və ya qulağı dibindən kəsilmiş. Lakin buynuzda olan az sınıq və qulaqda olan az kəsiyin eybi yoxdur.

Qurban kəsdirən insan sərbəst heyvan seçimi etməli, satıcı onu "filan heyvanı seç" deyə məcbur etməməlidir.

**- Qurbanı kəsilməsinin vaxtı**

Bayram namazından sonra, bayramın dördüncü günü əsr namazına qədər kəsilə bilər.

**- Kəsilmiş heyvanın bölünməsi**

Yaxşı olar ki, qurbanlıq heyvanı üç hissəyə bölərək: *bir hissəsi kasıblara sədəqə olaraq paylansın; bir hissəsi kasıb, yaxud varlı olmasından asılı olmayaraq, yaxın qonşular, dostlar və qohumlara verilsin, bir hissəsi isə özü və ailəsi üçün ayrılsın.*

**- Qurban kəsənin edəcəyi müstəhəb/sünnə əməllər**

*- Qurban kəsmək istəyən Zil-hiccə ayının birindən etibarən saçını və dırnaqlarını tutmamalıdır;*

*- Bacardığı qədər heyvanı özü kəsməsi yaxşıdır;*

*- Kəsməyi bacarmayanların həmin vaxt kəsdirdikləri heyvanın yanında olmaları daha yaxşıdır.*

**- Qurban Kəsərkən Oxunan Dua**

Qurbanı qibləyə tərəf yönəldib: ***"Bismilləh vallahu əkbər, Allahummə həzihi minkə və ləkə, Allahummə həzihi anni və an əhli"*** (duanın mənası: Allahın adı ilə. Allah hər şeydən ucadır. Allahım bunu mənə Sən vermisən və mən də onu Sənin üçün kəsirəm. Allahım bu mənim və ailəmin əvəzinədir (yaxud: Allahım bu, filankəs və onun ailəsinin əvəzinədir).

Peyğəmbərin (ona Allahın salamı olsun) əməlinə uyğun olaraq, heyvanın qara ciyərindən yemək yaxşıdır.

*** Diqqət!**

*– Bir qoyun bir nəfər və onun ailəsinin əvəzinə kəsilə bilər. Peyğəmbərimiz qoyun kəsdikdə belə deyərdi: "Allahım, bu, Məhəmməd və onun ailəsi üçündür".*

*– Ölən adam vəsiyyət edibsə, onun əvəzinə də kəsmək yaxşıdır. Hətta vəsiyyət etməsə də, onun adını ailə ilə birlikdə hallandırmaq olar.*

**- Qəssaba əmək haqqı olaraq qurban əti vermək olmaz. Lakin sonra sədəqə kimi ət vermək olar.**

- Başqasının əvəzinə də qurban kəsmək olar. Qurban kəsə bilməyən kasıbların əvəzinə Peyğəmbər (ona Allahın salamı olsun) kəsmişdir. O, iki qoyun kəsəndə birini ailəsi adından kəsər və digərini kəsdikdə deyərdi: ***"Allahım, bu isə mənim və ümmətimdən qurban kəsməyənlərin əvəzinədir".***

- Qurban kəsdirməyi, yaşadığı yerdən asılı olmayaraq, başqasına tapşırmaq olar.

- İnəyi və ya dəvəni bölüşdürdükdə, bir şərik üçün digər şəriklərin niyyət və dini etiqadı önəm kəsb etmir. Önəmli olan hər şəxsin öz niyyətidir və hər kəs savabını buna görə alacaq.

**Bəzi xurafatlar**

– "Dişi heyvandan qurban olmaz" deyə düşünmək.

– Heyvanın yalnız bir nəfərin adından olmasına etiqad etmək.

– Qurbanın ömürdə (hər il deyil) bir dəfə vacib olmasını etiqad etmək.

– Ölən adama vacib olmasını etiqad etmək.






## "Baker Tilly Audit Azərbaycan" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | 31 dekabr 2022-ci il |
|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Torpaq, tikili və avadanlıqlar** | **624,982** |
| **Qeyri-maddi aktivlər** | **26,494** |
| **Təxirə salınmış vergi aktivləri** | |
| **Uzunmüddətli debitor borcları** | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **1,800** |
| sair maliyyə aktivləri | 1,800 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **653,276** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Debitor borcları:** | **403,576** |
| alıcılar və sifarişçilərlə hesablaşmalar | 403,576 |
| Vergilərlə bağlı hesablaşmalar | |
| asılı təşkilatlar üzrə | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **770,061** |
| kassa | 12,030 |
| hesablaşma hesabı | 447,199 |
| valyuta hesabı | 237,998 |
| Digər hesablar | 72,834 |
| **Sair qısamüddətli aktivlər:** | **548,915** |
| gələcək hesabat dövrlərinin xərcləri | |
| verilmiş avanslar | 34,220 |
| təhtəl hesablar | 815 |
| sair aktivlər | 513,880 |
| ***Cəmi qısamüddətli aktivlər*** | **1,722,552** |
| **CƏMİ AKTİVLƏR** | **2,375,828** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 31 dekabr 2022-ci il |
|---|---|
| **I .KAPİTAL** | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **2000,00** |
| **Kapital ehtiyatları:** | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **609,285** |
| hesabat dövründə xalis mənfəət (zərər) | 748,100 |
| mənfəət (zərər) üzrə düzəlişlər | 824 |
| keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət/(məcmu zərər) | 584,805 |
| kapital ehtiyatları | |
| əldə edilmiş dividentlər | (582,000) |
| mənfəətin digər istifadəsi | (142,444) |
| **CƏMİ KAPİTAL** | **611,285** |
| **II UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **255,555** |
| **Kreditor borcları** | **334,518** |
| sair kreditorlar | 334,518 |
| **Sair qısamüddətli öhdəliklər:** | **1,174,470** |
| gələcək hesabat dövrünün gəlirləri | |
| alınmış avans | 1,174,470 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair öhdəliklər** | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **1,764,543** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **1,764,542** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **2,375,828** |

## "TID Konsaltinq" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | 31 dekabr 2022-ci il |
|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Torpaq, tikili və avadanlıqlar** | **25,901** |
| **Qeyri-maddi aktivlər** | **2,274** |
| **Təxirə salınmış vergi aktivləri** | |
| **Uzunmüddətli debitor borcları** | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **5,000** |
| dövlət qiymətli kağızları | |
| qeyri-dövlət qiymətli kağızları | |
| sair maliyyə aktivləri | 5,000 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair aktivlər** | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **33,175** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Debitor borcları:** | **18,336** |
| alıcılar və sifarişçilərlə hesablaşmalar | 18,336 |
| vergilərlə bağlı hesablaşmalar | |
| asılı təşkilatlar üzrə | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **234,279** |
| kassa | 62,591 |
| hesablaşma hesabı | 163,160 |
| valyuta hesabı | 1,299 |
| digər hesablar | 7,229 |
| **Sair qısamüddətli aktivlər:** | **1,139** |
| gələcək hesabat dövrlərinin xərcləri | |
| verilmiş avanslar | 1,139 |
| təhtəl hesablar | |
| **Sair aktivlər** | **107,214** |
| ***Cəmi qısamüddətli aktivlər*** | **360,968** |
| **CƏMİ AKTİVLƏR** | **394,143** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 31 dekabr 2022-ci il |
|---|---|
| **I .KAPİTAL** | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **2,000** |
| **Emissiya gəliri** | |
| **Kapital ehtiyatları:** | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | |
| xüsusi məqsədli maliyyələşmələr | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **105,492** |
| hesabat dövründə xalis mənfəət (zərər) | 117,710 |
| mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı | |
| mənfəət (zərər) üzrə düzəlişlər | |
| keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət/(məcmu zərər) | 114,335 |
| mənfəətin digər istifadəsi | (12,223) |
| elan edilmiş dividentlər | (114,330) |
| **CƏMİ KAPİTAL** | **107,492** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **34,021** |
| **Kreditor borcları:** | **235,254** |
| malsatan və podratçılarla hesablaşmalar | 235,254 |
| əməyin ödənilməsi üzrə | |
| **Sair qısamüddətli öhdəliklər:** | **17,322** |
| gələcək hesabat dövrünün gəlirləri | |
| alınmış avanslar | 17,322 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair öhdəliklər** | **54** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **286,651** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **286,651** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **394,143** |

# 40 min qeyri-yaşayış sahəsinin istismarına icazə veriləcək



İyunun 18-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi"nə dəyişikliklər müzakirə olunub.

Dəyişikliklərə əsasən, 2023-cü il martın 1-dək inşa edilmiş, etibarlılıq və təhlükəsizlik tələblərinə uyğunluğuna dair rəyi təqdim edən qeyri-yaşayış sahələri çıxarış (kupça) ilə təmin ediləcək. Bu o, deməkdir ki, hətta əvvəllər hansı ildə inşa edilməsindən asılı olmayaraq, tikintisi sözügedən Məcəllənin tələblərinə uyğun aparılmayan, amma etibarlılığı və təhlükəsizliyi olan bütün qeyri-yaşayış sahələrinin istismarına icazə veriləcək.

Bu barədə millət vəkili Vüqar Bayramov bldirib. O qeyd edib ki, ilkin qiymətləndirmələrə görə bu sadələşdirmə 40 mindən çox obyekti əhatə edəcək.

*"Digər dəyişikliklər ilə istismar proseduralarının daha da sadələşdirilməsi və elektronlaşması nəzərdə tutulur. Bu baxımdan, dəyişikliklər daşınmaz əmlak sektorunda şəffaflığın daha da artmasına və sənədləşmənin sürətlənməsinə xidmət edəcək. Müzakirələrdə dəyişikliklərin mütərəqqi olması qeyd olunmaqla yanaşı, növbəti mərhələdə 500 mindən çox sənədsiz fərdi evin də qeydiyyatı ilə bağlı işlərin daha da sürətləndirilməsinin vacibliyi qeyd olundu. İnanırıq ki, növbəti mərhələdə çıxarışların verilməsinin sadələşdirilməsi bu evləri də əhatə edəcək"*, - V.Bayramov qeyd edib.

## "RD SMART" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | 31 dekabr 2022-ci il |
|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Torpaq, tikili və avadanlıqlar** | **93,565** |
| **Qeyri-maddi aktivlər** | |
| **Təxirə salınmış vergi aktivləri** | |
| **Uzunmüddətli debitor borcları** | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **10,010** |
| dövlət qiymətli kağızları | |
| qeyri-dövlət qiymətli kağızları | |
| sair maliyyə aktivləri | 10,010 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair aktivlər** | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **103,575** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Debitor borcları:** | **2,820** |
| alıcılar və sifarişçilərlə hesablaşmalar | 2,820 |
| Vergilərlə bağlı hesablaşmalar | |
| asılı təşkilatlar üzrə | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **33,699** |
| kassa | 13,955 |
| hesablaşma hesabı | 15,608 |
| valyuta hesabı | 7 |
| digər hesablar | 4,129 |
| **Mal və material:** | **1,089,583** |
| Mal | |
| xammal və material | 1,089,125 |
| azqiymətli və tezköhnələn əşyalar | 458 |
| **Sair qısamüddətli aktivlər:** | **458,863** |
| Verilmiş avanslar | 458,863 |
| gələcək hesabat dövrlərinin xərcləri | |
| təhtəl hesablar | |
| **Sair aktivlər** | **58,346** |
| ***Cəmi qısamüddətli aktivlər*** | **1,643,311** |
| **CƏMİ AKTİVLƏR** | **1,746,886** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 31 dekabr 2022-ci il |
|---|---|
| **I .KAPİTAL** | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **2,000** |
| **Emissiya gəliri** | |
| **Kapital ehtiyatları:** | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | |
| xüsusi məqsədli maliyyələşmələr | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **422,443** |
| hesabat dövründə xalis mənfəət (zərər) | (308,633) |
| mənfəət (zərər) üzrə düzəlişlər | 38,437 |
| keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət/(məcmu zərər) | 808,397 |
| kapital ehtiyatları | |
| əldə edilmiş dividentlər | |
| Mənfəətin digər istifadəsi | (115,758) |
| **CƏMİ KAPİTAL** | **424,443** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **0.00** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **32,191** |
| **Kreditor borcları:** | **517,279** |
| malsatan və podratçılarla hesablaşmalar | 504,706 |
| əməyin ödənilməsi üzrə | 3,680 |
| sosial sığorta və təminat üzrə | |
| Təhtəlhesab şəxslər | 8,893 |
| sair kreditorlar | |
| **Sair qısamüddətli öhdəliklər:** | |
| gələcək hesabat dövrünün gəlirləri | |
| alınmış avanslar | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **772,973** |
| **Sair öhdəliklər** | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **1,322,443** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **1,322,443** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **1,746,886** |

| MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT | 01yanvar 2022-ci il tarixdən 31 dekabr 2022-ci il tarixinədək olan dövr üzrə |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | |
| İşlərin görülməsindən və malların satışından | 2,607,217 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| **Sair gəlirlər** | |
| **Xarici valyutaların manata nisbətən məzənnəsinin dəyişməsindən yaranan fərq** | **(78)** |
| **CƏMİ GƏLİRLƏR** | **2,607,139** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **(1,814,518)** |
| Əməyin ödənilməsi üzrə xərclər | (623,937) |
| Sosial sığorta və təminat üzrə xərclər | (113,358) |
| Xammal və materiallar | (861,836) |
| İcarə ödənişləri | (88,217) |
| Bank xidmətləri üzrə xərclər | (9,574) |
| Yanacaq xərcləri | (19,269) |
| Rabitə xərcləri | (9,714) |
| Reklam xərcləri | (3,620) |
| Ezamiyyə xərcləri | (1,695) |
| Amortizasiya ayırmaları | (31,999) |
| Nəqliyyat xərcləri | (37,149) |
| Sığorta üzrə xərclər | (8,913) |
| Gəlirdən çıxılan vergilər və yığımlar | (955) |
| Təmir xərcləri | (4,282) |
| **İşlərin aparılması xərcləri** | **(891,847)** |
| **Sair xərclər** | **(136,559)** |
| **CƏMİ XƏRCLƏR** | **(2,842,924)** |
| **Maliyyə mənfəəti (zərəri)** | **(235,785)** |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **(235,785)** |
| **Mənfəət vergisi** | **(72,848)** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **(308,633)** |

| ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ: | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|
| Mənfəət vergisindən əvvəlki gəlir | (235,785) |
| Əmlak, tikili və avadanlıqların amortizasiyası | 24,738 |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər** | **(211,047)** |
| **Əməliyyat aktivlərində (artma)/azalma:** | |
| Cari vergi öhdəliklərində artım/azalma | (72,848) |
| Mal-material ehtiyatları | (648,757) |
| Debitor borcları və alınacaq digər vəsaitlər | 14,939 |
| Verilmiş avanslar | 1,007,817 |
| Digər aktivlər | (11,406) |
| **Əməliyyat öhdəklirərində artma/(azalma):** | |
| Alınmış avanslar | |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | 206,223 |
| Ödəniləcək vergilər | (284,270) |
| Kredit üzrə hesablaşmalar | |
| Təsisçilərlə hesablaşmalar | 95,000 |
| Digər öhdəliklər | |
| **Əməliyyat fəaliyyətində yönəldilmiş xalis pul vəsaitləri** | **306,698** |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri:** | |
| Əmlak, tikili və avadanlıqlar üzrə ödənişlər | (28,178) |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | |
| Səhmlər və iştirak payları üzrə maliyyə qoluluşları | (10,010) |
| Əmlak və avadanlıqların silinməsindən daxilolmalar | 7,261 |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(30,927)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | |
| Nizamnamə kapitalı | |
| Mənfəət (zərər) üzrə düzəlişlər | 38,437 |
| Mənfəətin digər istifadəsi | (115,758) |
| **Maliyyələşdirmə fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(77,321)** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALETLƏRİNDƏ XALİS AZALMA | **12,597** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | **46,296** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | **33,699** |

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Kapital ehtiyatları | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2021 ci il tarixə qalıq** | **2,000** | **808,397** | | **810,397** |
| mənfəət (zərər) üzrə düzəlislər | -- | 38,437 | -- | **38,437** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -- | (308,633) | -- | **(308,633)** |
| Nizamnamə Kapitalı | -- | -- | -- | -- |
| Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi | -- | -- | -- | -- |
| Mənfəətin digər istifadəsi | -- | (115,758) | -- | **(115,758)** |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | **2,000** | **422,443** | -- | **424,443** |

# Aktiv ƏDV ödəyicilərinin sayı 6,6 faiz artıb

2023-cü ilin yanvar-may ayları ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları 45 faiz və ya 2,6 milyard manatdan çox artıb.

AZƏRTAC Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, həmin dövrdə qeyri-neft-qaz sektorunda daxilolmalar 4,6 milyard manat olub, ötən ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 17,8 faiz və ya 697,2 milyon manat artıb.

"Kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması istiqamətində həyata keçirilən tədbirlər bir çox sahələrdə fəaliyyəti leqallaşdırmağa və aktiv ödəyicilər kateqoriyasını artırmağa imkan verib. Bu baxımdan ƏDV ödəyicilərinin sayında müşahidə olunan artım fiskal baxımdan xüsusilə aktualdır. 2023-cü ilin iyunun 1-nə ölkəmizdə aktiv ƏDV ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 6,6 faiz artaraq 42,6 min təşkil edib.

# Dövlət rüsumunun düzgün hesablanması və vaxtında dövlət büdcəsinə köçürülməsi ilə bağlı yeni qayda təsdiqlənib




Nazirlər Kabineti "Dövlət rüsumunun düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə köçürülməsinə nəzarətin həyata keçirilməsi qaydası"nı təsdiq edib.

Baş nazir Əli Əsədovun imzaladığı Qərara əsasən, dövlət rüsumu tutan qurumlar hakimiyyət səlahiyyətlərinin icrası zamanı göstərilən və hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə (sənədlərin tərtibi, qeydiyyatı, razılıqların verilməsi və s.) haqq (ödəniş) tutan dövlət orqanları və Azərbaycan Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər, nəzarət Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi tərəfindən dövlət rüsumu üzrə daxilolmalar barədə məlumat mübadiləsinin aparılması, dövlət rüsumu ilə bağlı maliyyə sənədlərinin və hesabatlarının yoxlanılması vasitəsilə həyata keçirilən tədbirlərin məcmusudur.

# "Bakı Kart" üçün yeni mobil tətbiq - balansı artırmaq asanlaşdı

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) "BakıKart" plastik kartlarını idarə etmək və səfər planlamasını aparmaq üçün yeni tətbiq istifadəyə verib.

Bu tətbiqlə istifadəçilər asanlıqla səfərlərini planlaya, "BakıKart" plastik kartların balansını artıra və gediş haqqını ödəyə bilərlər.

Mobil tətbiqdə qeydiyyatdan keçmək üçün yalnız mobil nömrə və şifrə kifayətdir.

İstifadəçilər marşrutları asanlıqla axtara, təyinat yerinə getmək üçün ən yaxın dayanacaqları tapa və avtobusları real vaxt rejimində izləyə bilərlər.

Tətbiq istifadəçilərə bir neçə QR biletləri yaratmağa və QR bilet tarixçələrini görməyə imkan verir. Həmçinin istifadəçilərə vaxta qənaət etmək imkanı qazandırır və ictimai nəqliyyatdan istifadə prosesini sadələşdirir. "BakıKart" mobil tətbiqi və www.bakikart.az saytı vasitəsilə təmin edilən platforma üzrə hesablar vahiddir. Bu o deməkdir ki, www.bakikart.az saytı vasitəsilə qeydiyyatdan keçmiş istifadəçilər üçün mobil tətbiqdə yenidən qeydiyyatdan keçməyə ehtiyac yoxdur. İstifadəçilər yalnız qeydiyyatdan keçdikləri mobil nömrə və şifrəni daxil etməklə mobil tətbiqdən yararlana bilərlər.

# Çin, Türkmənistan və Hindistandan gələn turistlərin sayı kəskin artıb

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, 2023-cü ilin yanvar-may aylarında Azərbaycan Respublikasına dünyanın 176 ölkəsindən 713 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,5 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.

Gələnlərin 32,4 faizi Rusiya Federasiyası, 20,0 faizi Türkiyə, 8,1 faizi İran, 5,2 faizi Gürcüstan, 4,9 faizi Hindistan, 2,3 faizi Pakistan, 2,2 faizi Qazaxıstan, 2,1 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,0 faizi Səudiyyə Ərəbistanı, 1,9 faizi Özbəkistan, 1,6 faizi Belarus, 1,5 faizi Ukrayna, 1,3 faizi Böyük Britaniya, 1,3 faizi Türkmənistan, 1,2 faizi Küveyt, 12,0 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 74,1 faizini kişilər, 25,9 faizini qadınlar təşkil etmişdir.

Ötən ilin eyni dövrü ilə müqayisədə Çindən gələnlərin sayı 6,1 dəfə, Türkmənistandan 3,9 dəfə, Hindistandan 3,2 dəfə, Belarusdan 2,7 dəfə, Özbəkistandan 2,6 dəfə, Qazaxıstandan 2,0 dəfə, Rusiya Federasiyasından 2,0 dəfə, Böyük Britaniyadan 1,8 dəfə, İsraildən 1,7 dəfə, ABŞ-dan 1,6 dəfə, Küveytdən 43,8 faiz, Pakistandan 43,0 faiz, Gürcüstandan 41,7 faiz, Türkiyədən 22,5 faiz, Omandan 17,4 faiz, Birləşmiş Ərəb Əmirliklərindən 14,7 faiz artmışdır.



2022-ci ilin yanvar-may ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 19,5 faiz artaraq 633,6 min nəfər olmuşdur.

# "Tibbi vasitələrin risk dərəcəsinə görə bölgüsü təyin olunacaq"




Bunu səhiyyə nazirinin müavini Rasim İsmayılov Milli Məclisin Səhiyyə komitəsinin bu gün keçirilən iclasında deyib.

O bildirib ki, 3 risk dərəcəsi müəyyən ediləcək və tibbi vasitələr həmin səviyyələr üzrə reyestrdən keçiriləcək.

# Azərbaycana idxal edilən məhsullar 20%-dən çox bahalaşıb

2023-cü ilin aprel ayında idxal olunan məhsulların qiymət indeksi əvvəlki ayla müqayisədə 100.9 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 118.8 faiz, 2023-cü ilin yanvar-aprel aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 120.5 faiz təşkil edib.

Banker.az DSK-ya istinadən xəbər verir ki, 2023-cü ilin may ayında ölkəyə idxal edilmiş ərzaqlıq buğdanın 1 tonunun orta qiyməti 465.98 manat təşkil etmişdir.

2023-cü ilin aprel ayında ixrac olunan məhsulların qiymət indeksi əvvəlki ayla müqayisədə 99.4 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 73.6 faiz, 2023-cü ilin yanvar-aprel aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 82.9 faiz təşkil edib. İxrac olunan qeyri neft-qaz məhsullarının qiymət indeksi 2023-cü ilin aprel ayında əvvəlki ayla müqayisədə 100.1 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 102.7 faiz, 2023-cü ilin yanvar-aprel aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 103.2 faiz olub.

# Azərbaycanın iri şpris istehsalçısının xalis mənfəəti artıb




Pirallahı Sənaye Parkının rezidenti kimi qeydiyyatda olan şpiris istehsalçısı "Diamed Co" Məhdud Məsuliyyətli Cəmiyyəti 2022-ci ildə 2.18 milyon manat xalis mənfəət əldə edib.

Banker.az bunu şirkətin illik audit hesabatına istinadən xəbər verir. 2021-ci ildə şirkətin xalis mənfəəti 2.41 milyon manat olub. Şpiris istehsalçısı 2022-ci ildə 7.69 milyon manat həcmində gəlir əldə edib ki, bu, illik 9% artım deməkdir. Şirkətin balansında 1 yanvar 2023-cü il tarixinə 27 min manat bölüşdürülməmiş mənfəət var. Buna səbəb səhmdarlara 2021-ci ildə 1.05 milyon və 2022-ci ildə 3.56 milyon manat dividend elan etməsidir.

Xatırladaq ki, müəssisədə İsveçrə, Almaniya, Yaponiya və qabaqcıl Avropa ölkələrinin texnologiyaları əsasında müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı həyata keçirilir.

*Qarabağın görkəmli simaları*

# Yaqub Quliyev (1900-1942)



Sovet Ordusunun general-mayoru, İkinci Dünya müharibəsi iştirakçısı Yaqub Allahqulu oğlu Quliyev 1900-cü il yanvarın 25-də füsunkar Qarabağın Şuşa şəhərində dünyaya gəlib. Kiçik yaşlarında olarkən ailəsi ilə birlikdə Türkmənistana köçmüş və orada yaşamışlar.

1918-ci ildən Qırmızı Orduda könüllü xidmət etmiş, vətəndaş müharibəsinin və Türküstanda sovet hakimiyyətinin qurulmasının fəal iştirakçısı olmuşdur. 1918-ci ilin avqustundan 1920-ci ilin fevralına qədər Transxəzər cəbhəsinin bölmələrində Qırmızı Ordu əsgəri kimi xidmət etmişdir.

1920-ci ildə 1-ci Türküstan atıcı diviziyasının Əlahiddə Süvari Batalyonuna tağım komandiri təyin edilərək, qırmızı komandirliyə yüksəlmişdir.

1921-ci ildən 1932-ci ilə qədər basmaçılara qarşı mübarizədə iştirak etmiş, döyüş əməliyyatları zamanı göstərdiyi hərbi şücaətə görə Türkmənistan SSR Qırmızı Əmək Bayrağı ordeni və Türkmənistan SSR Mərkəzi İcraiyyə Komitəsinin Fəxri Fərmanları ilə təltif edilmişdir.

1933-cü ildə Y.Quliyev Frunze adına Hərbi Akademiyaya oxumağa göndərilmiş, 1936-cı ildə məzun olaraq kapitan rütbəsi və 1-ci dərəcəli diplomla təltif edilmiş, 1936-cı ildən 1940-cı ilə qədər 18-ci Türkmən Dağ Süvari Diviziyasında əvvəlcə əməliyyat şöbəsinin rəisi, sonra isə diviziyanın qərargah rəisi vəzifələrində xidmət etmişdir.

22 iyun 1941-ci ildə artıq polkovnik rütbəsində olan Y.Quliyev 21-ci dağ süvari diviziyasının komandiri vəzifəsinə təyin edilmişdir. Bir ay sonra diviziya artıq Fəal Ordunun tərkibində idi və 13-cü Ordunun tərkibində Mərkəzi Cəbhədə düşmənlə vuruşurdu.

Noyabrın 23-də Kurqan-Solyana uğrunda gedən döyüşlərdə vəziyyətin mürəkkəbliyini nəzərə alaraq, general-mayor şəxsən irəliləyən döyüşçülərlə birgə vuruşub və kəndin tutulmasına rəhbərlik edib. Bu döyüşlərdə18 top, 15 pulemyot məhv edilmiş, düşmənin 800-ə qədər əsgər və zabiti öldürülmüş, 250 əsir götürülmüşdür. Noyabrın 25-26-da diviziya düşmənin 50 tankdan ibarət tank qrupu və motoatıcı alayı ilə döyüşürdü. Döyüşlər zamanı Y.Quliyev almanların tank hücumlarının dəf edilməsinə rəhbərlik etmiş, almanları qərbə doğru 5 km geri çəkilməyə məcbur etmişdir. Bu zaman düşmənin 6 tankı və 250-yə qədər piyada döyüşçüsü məhv olmuşdur.

1942-ci ilin dekabr ayında 61-ci süvari diviziyasının ön döyüş xəttində qəhrəmanlıqla vuruşan general-mayor Y.Quliyev Stalinqrad ətrafında döyüşlərin birində ölümcül yaralanaraq vəfat etmişdir. General-mayor Y.Quliyevin cənazəsi təyyarə ilə Türkmənistanın Marı şəhərinə aparılaraq, mərkəzi şəhər parkının ərazisində, Murqab çayının sahilində dəfn edilmişdir. SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 fevral 1943-cü il tarixli fərmanı ilə general-mayor Yaqub Quliyev ölümündən sonra Lenin ordeni ilə təltif edilmişdir.

# “Böyük Zəfərin 101 şəhidi!” kitabının təqdimatı keçirilib





Bu yaxınlarda müstəqil araşdırmaçı jurnalist, yazıçı Aydın Tağıyevin “Vətən” layihəsi çərçivəsində İkinci Qarabağ müharibəsinin 101 şəhidi haqqında müsahibələrindən ibarət olan “Böyük Zəfərin 101 şəhidi!” kitabı ictimaiyyətə təqdim olunub. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında keçirilən tədbirdə şəhid anaları, yaxınları, elm və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbir Vətənin azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.



Qonaqları salamlayaraq, giriş nitqi ilə çıxış edən müəllif kitab haqqında qısa məlumat verərək, İkinci Qarabağ müharibəsinin üç mindən artıq şəhidindən hələ ki 101-nin qəhrəmanlıq tarixini qələmə ala bildiyini qeyd edib. Onun sözlərinə görə, kitabın yazılmasında əsas məqsəd İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəman Azərbaycan oğullarının igidlikləri, yenilməz Azərbaycan ordusunun şücaəti barəsində gələcək nəsilləri məlumatlandırmaqdır.

Tədbirdə, həmçinin sözləri Aydın Tağıyevə məxsus olan “İlk Zəfər Marşı” da səsləndirilib. Daha sonra şəhidlərin ailə üzvləri və digər qonaqlar çıxış edərək, təəssüratlarını və kitab haqqında fikirlərini bölüşüblər.

Sonda müəllif layihədə iştirak edən hər kəsə təşəkkürünü bildirib, tədbir sözləri Aydın Tağıyevə aid olan “Vətən” marşı ilə yekunlaşıb.

**Mətanət Hüseynova**

# Mərkəzi Gömrük Hospitalında 17 iyun - Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib



Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov çıxış edərək, tibb işçilərinin peşə bayramı münasibətilə Mərkəzi Gömrük Hospitalının əməkdaşlarını təbrik edib. Ulu öndər Heydər Əliyevin səhiyyəmizin uğurlu inkişafındakı misilsiz xidmətlərindən bəhs olunub və Prezident İlham Əliyevin bütün istiqamətlərdə reallaşdırdığı sosial-iqtisadi siyasətin, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun səhiyyə sahəsində həyata keçirdiyi layihələrin ölkəmizdə tibb elminin tərəqqisinə, səhiyyə xidmətlərinin əlçatanlığının təmin olunmasına münbit şərait yaratdığı vurğulanıb. tibb sahəsində qabaqcıl bilik, təcrübə və texnologiyaların öyrənilərək ölkəmizdə tətbiqi, COVİD-19 pandemiyası ilə mübarizə sahəsində əldə etdiyi nailiyyətlərdən, əhalinin müxtəlif kateqoriyaları arasında keçirilən sosial aksiyalardan, inkişaf etmiş ölkələrin səhiyyə ocaqları ilə qurulan işgüzar əlaqələrdən bəhs ediblər. Tədbirdə Hospitalın fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.



Sonda 17 iyun –Tibb İşçilərinin Peşə Bayramı Gününə həsr edilmiş iclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov tərəfindən Mərkəzi Gömrük Hospitalının xidmətdə fərqlənən bir qrup əməkdaşına “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)” Azərbaycan Respublikasının yubiley medalı, döş nişanı, fəxri fərmanlar təqdim edilib.

O da qeyd olunub ki, qısa zaman kəsiyində ölkəmizin nümunəvi tibb ocaqlarından birinə çevrilən Mərkəzi Gömrük Hospitalı gömrük əməkdaşlarının sağlamlığının keşiyində durmaqla yanaşı, gömrük orqanları qarşısındakı vəzifələrin icrası istiqamətində də əhəmiyyətli rol oynayır.

Daha sonra Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, İdarənin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi Rəşad Mahmudov və digərləri Mərkəzi Gömrük Hospitalının

17 iyun –Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə xidmətdə əldə etdikləri yüksək müvəffəqiyyətləri, qüsursuz xidməti və digər nailiyyətləri nəzərə alaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022) Azərbaycan Respublikasının yubiley medalı ilə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının Radiologiya şöbəsinin həkim-sonoloqu Günay Əhmədova və həkim-terapevt Nazilə Xəlilbəyova təltif olunublar.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının Ürək-Damar Cərrahiyyəsi şöbəsinin rəisi, ürək-damar cərrahı Elməddin Əliyev, Travmatologiya və ortopediya şöbəsinin rəisi, travmatoloq-ortoped Ramin Rzayev, Cərrahiyyə şöbəsinin həkim-cərrahı Aynur Səfiyeva “Gömrük Xidməti Əlaçısı” döş nişanı ilə təltif olunublar.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının Planlaşdırma və marketinq şöbəsinin PR üzrə mütəxəssisi Dilarə Zamanova “Gömrük Əməkdaşlığının möhkəmləndirilməsinə görə” döş nişanı ilə təltif olunub.

Mərkəzi Gömrük Hospitalının 11 əməkdaşı Azərbaycan Respublikası Gömrük işini aparan İcra Hakimiyyəti Orqanının Fəxri Fərmanı ilə təltif olunub, 7 nəfərə təşəkkür elan edilib.

Həmçinin, xidmətdə fərqlənmiş Tibbi Xidmət İdarəsinin təsərrüfat hesablı Mərkəzi Hospitalının 10 əməkdaşına həvəsləndirmə tədbiri kimi pul mükafatı təqdim edilib.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının Azərbaycan Respublikasının yubiley medalı, döş nişanı, fəxri fərmanlar təqdim edilən, təşəkkürnamə elan olunan və pul mükafatı tətbiq edilən əməkdaşlarını təbrik edir, onlara fəaliyyətlərində yeni-yeni uğurlar arzulayırıq!




**Azəri Light və Brent markalı neftin bir barelinin 15-21 iyun tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500